# Vətəndaş müraciətinə ədalətli münasibət sosial həmrəyliyin şərtlərindən biridir

Təcrübə göstərir ki, yalnız əsl siyasi liderlik keyfiyyətlərinə malik olan şəxslər xalqının və dövlətinin maraqlarını təmin etməyi bacarır, istənilən neqativ meyillərə qarşı vaxtında qabaqlayıcı və adekvat tədbirlər həyata keçirir, ən çətin anlarda vətəndaşının yanında olur, onların mənayefinə cavab verən çevik qərarlar qəbul edirlər. Bu da, öz növbəsində, ondan peşəkarlıq, uzaqgörənlik, öz xalqına bağlılıq kimi mühüm keyfiyyətlər tələb edir.

Bu mənada siyasi liderlik meyarlarından biri də statusa iddia edən şəxsin yüksək ali keyfiyyətlərə malik olmasıdır. Ümummilli lider Heydər Əliyevin böyük müdrikliklə müəyyən etdiyi sosial-iqtisadi inkişaf strategiyasını uğurla həyata keçirən Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərlik fəaliyyətini diqqətlə nəzərdən keçirdikdə bu tələblərə cavab verən alternativsiz siyasi lider olduğu bir daha qabarıq görünür. Dövlət başçısı hər zaman mövcud gerçəklikləri operativ və obyektiv şəkildə qiymətləndirib, cəmiyyətin sosial sifarişinə uyğun çevik qərarlar qəbul edib, habelə ölkənin taleyüklü problemlərinə daim böyük həssaslıqla yanaşıb. Dövlət başçısının cəmiyyətin sosial sifarişinə uyğun çevik qərarlar qəbul etməsi, hər bir məsələyə həssaslıqla yanaşması, daim ictimaiyyət arasında olması cəmiyyətin nəinki tərəqqisini, həm də xoş ovqatını təmin edən mühüm nüanslardır.

## Dövlət orqanlarının əsas vəzifəsi

Cəmiyyətin tərəqqisi ilə yanaşı, sosial həmrəyliyini təmin edən əsas şərtlərdən biri vətəndaşı düşündürən problemlərin vaxtında həll edilməsi, hər bir insanın dövlət strukturlarına olan müraciətlərinə çevik və ədalətli münasibətin ortaya qoyulmasıdır. Ələlxüsus söhbət cəmiyyətin sosial müdafiəsindən gedirsə, burada vətəndaşı narahat edən məsələlərə daha diqqətlə yanaşılması olduqca vacibdir. Çünki məhz bu kimi məsələlərin kökündə insanların dövlət orqanlarına inamının və etimadının formalaşması dayanır.

Vətəndaşların müraciətlərinə baxılması Azərbaycan Respublikası Konstitusiyası ilə təsbit olunmuş insan və vətəndaş hüquq və azadlıqlarının həyata keçirilməsi və müdafiəsi sahəsində dövlət orqanlarının qarşısında qoyulmuş vəzifələrdən biridir. Azərbaycan Respublikası Konstitusiyasının 57-ci maddəsinin birinci hissəsinə əsasən, ölkə vətəndaşlarının dövlət orqanlarına şəxsən müraciət etmək, habelə fərdi və kollektiv yazılı müraciətlər göndərmək hüququ var. Dövlət hakimiyyəti orqanları, idarə, təşkilat və müəssisələrin rəhbərləri, digər vəzifəli şəxsləri vətəndaşların qəbul edilməsinin təşkilini təmin etməlidirlər. Hər bir müraciətə qanunla müəyyən edilmiş qaydada və müddətlərdə yazılı cavab verilməlidir. Dövlət hakimiyyəti orqanları, idarələr, təşkilatlar, müəssisələr, onların rəhbərləri və digər vəzifəli şəxsləri müraciətdə irəli sürülən məsələləri həll etməli, onların səlahiyyətinə aid olmadıqda, bunları müvafiq təşkilata göndərməli və bu barədə müraciət edənə məlumat verməli, şəxsi qəbul zamanı isə hara müraciət etmək lazım olduğunu izah etməlidir.

Azərbaycanda vətəndaşların müraciətlərinə baxılmasının mükəmməl qanunvericilik bazası da yaradılıb. Bu məsələ "Vətəndaşların müraciətləri haqqında", "Dövlət qulluğu haqqında", "Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) məhkəməyə şikayət edilməsi haqqında", "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının qanunları və "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrdə vətəndaşların təklif, ərizə və şikayətləri üzrə kargüzarlığın aparılması Qaydaları" ilə tənzimlənir.

## Prezidentə ünvanlanan təşəkkür məktublarının coğrafiyası genişdir

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Süleyman İsmayılovun "Azərbaycan" qəzetində dərc olunmuş "Azərbaycan Prezidenti vətəndaşların müraciətlərinə daimi diqqət və qayğını prioritet məsələ hesab edir" başlıqlı məqaləsindən də göründüyü kimi, ölkə başçısına ünvanlanan heç bir müraciət diqqətdən kənarda qalmır. Prezident Administrasiyasına daxil olan vətəndaş müraciətləri qeydiyyata alınır, hərtərəfli araşdırılır, ilk növbədə yaranma səbəbləri təhlil edilir, onlarda qaldırılan məsələlərin həlli üçün müvafiq tədbirlər görülür. Prezident Administrasiyasının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsində tətbiq olunan yeni proqram əsasında müraciətlərin dinamikasının, mövzularının və onlarda qaldırılan problemlərin öyrənilməsi müntəzəm və ardıcıl davam etdirilir.

Prezident İlham Əliyevin təşəbbüskarı olduğu uğurlu islahatlar nəticəsində Azərbaycan iqtisadiyyatı son illər dinamik inkişaf edib. Odur ki, 2015-ci ili haqlı olaraq böyük qələbələr və sınaq ili adlandıran, ölkəmiz üçün yaddaqalan, hər birimizin həyatında mühüm rol oynayan hadisələr, əldə olunan nailiyyətlər barədə faktlar əsasında bəhs edən müəllif yazır ki, sözün həqiqi mənasında, sarsıntılar keçirən, iqtisadi, siyasi problemlərin qloballaşdığı, münaqişə ocaqlarının getdikcə daha böyük miqyas aldığı indiki dünyada Azərbaycan Respublikası əvvəlki illərdə olduğu kimi, öz müstəqil siyasətini davam etdirib.

Prezident Administrasiyasına ünvanlanan müraciətlərin əhatə dairəsi genişdir və bunların böyük bir hissəsini minnətdarlıq məktubları təşkil edir. Əlbəttə, Azərbaycanın son illər qazandığı bütün uğurlara görə hər bir kəs məhz Prezident İlham Əliyevə minnətdardır. Ötən il bölgələrə çoxsaylı səfərlər edən Prezident İlham Əliyev daim vətəndaşların qayğıları ilə maraqlanıb. Cənab Prezident əhalinin aztəminatlı təbəqəsinin maddi rifahının gücləndirilməsinə, o cümlədən qaçqın və məcburi köçkünlərin, müharibə veteranlarının yaşayış şəraitinin yaxşılaşdırılmasına, baş vermiş faciələr və proqnozlaşdırılmayan təbii fəlakətlərin nəticələrinin qısa zamanda aradan qaldırılmasına, zərərçəkən vətəndaşlara hər cür yardımın göstərilməsinə xüsusi diqqət yetirib. Dövlət qayğısını görən insanlar, təbiidir ki, ilk növbədə ölkə Prezidentinə minnətdarlıq duyğularını çatdırmağı özlərinə borc bilirlər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çoxşaxəli fəaliyyətinə verilən qiymət öz əks-sədasını ilk növbədə ona ünvanlanan çoxsaylı minnətdarlıq məktublarında tapır. 2015-ci ildə Prezident Administrasiyasına daxil olan minlərlə belə məktubda insanlar səmimi ürək sözlərini, sevinc və fərəh hisslərini ifadə ediblər. Korrupsiyaya, vəzifəli şəxslərin öz səlahiyyətlərindən sui-istifadə etməsinə, həmçinin ayrı-ayrı qruplar tərəfindən ictimai asayişin pozulmasına, dini ekstremizmə qarşı aparılan uğurlu mübarizə, həyatın bütün sahələrində nizam-intizamın və qayda-qanunun qorunub saxlanılması, bu istiqamətdə normativ hüquqi aktların qəbul edilməsi vətəndaşlar tərəfindən yüksək qiymətləndirilir. Azad, demokratik, hüquqi dövlətin əsaslarını möhkəmlətmək, ayrı-seçkiliyin qarşısını qətiyyətlə almaq üçün ölkə Prezidentinin atdığı addımlar da ictimaiyyət tərəfindən müsbət qarşılanır. Bu mənada məqalə ilə tanışlıq göstərir ki, minnətdarlıq məktublarının mövzuları, coğrafiyası, müəlliflərin sosial kateqoriyası olduqca müxtəlifdir və bu, Prezident İlham Əliyevin gördüyü böyük və xeyirxah işlərin bütün spektrini əks etdirən güzgüdür. *"2015-ci ildəki minnətdarlıq məktublarının böyük bir qisminin kollektiv olması və bu məktubları onlarla, yüzlərlə vətəndaşın imzalaması görülən işlərin həcmindən, eyni zamanda, vətəndaşların ictimai məsələlərə diqqətinin daha da artmasından xəbər verir. Məktublarda tez-tez vurğulanan fikirlərdən biri də ondan ibarətdir ki, ümummilli liderimiz Heydər Əliyev Azərbaycanı xaosdan, anarxiyadan, parçalanmadan xilas etmişdisə, onun layiqli varisi Prezident İlham Əliyev çağdaş dünyamızda cərəyan edən qlobal proseslərdən, iqtisadi və siyasi böhranlardan, tənəzzüldən qurtararaq ölkəmizdə sürətli inkişafı və sabitliyi bərqərar etmiş, ən yeni tariximizə şanlı səhifələr yazmış və yazmaqdadır"*, - deyə Süleyman İsmayılov yazır.

Təbii ki, ötən il ölkə başçısına vətəndaşlar tərəfindən onları narahat edən məsələlərlə də bağlı məktublar daxil olub. Məqalədə qeyd olunduğu kimi, Prezident Administrasiyasına daxil olan müraciətlərin mövzuları çox müxtəlifdir. Müəyyən edilmiş təsnifat üzrə aparılan təhlillər göstərir ki, 2015-ci ildə vətəndaşlardan sosial müdafiə, əmək mübahisələri, işdən çıxarılma, ixtisar olunma, məhkəmə, milli təhlükəsizlik orqanlarının fəaliyyəti, maliyyə və bank, məişət, sənaye, sahibkarlığın inkişafı, səhiyyə, kənd təsərrüfatı məsələləri barəsində müraciətlər əvvəlki ilə nisbətən artıb. Bəzi mövzular, o cümlədən şəhər və rayon icra hakimiyyətlərinin və bələdiyyələrin, polis və prokurorluq orqanlarının fəaliyyəti, nəqliyyat, ekologiya və təbii sərvətlər, torpaq, təbii fəlakət hadisələri, şəhərsalma və tikinti, evlərin, mənzillərin sənədləşdirilməsi, mənzil məsələləri barədə müraciətlərin sayı nisbətən azalıb.

## Hər bir məmur xalqa xidmət etməlidir

Məqalədə qeyd olunur ki, 2015-ci ildə Prezident Administrasiyasına daxil olan vətəndaş müraciətlərinin öyrənilməsi göstərir ki, 2014-cü illə müqayisədə müraciətlərin sayı azalsa da, ölkə vətəndaşları öz problemlərini mərkəzi və yerli icra hakimiyyətləri, bələdiyyələr, mərkəzi dövlət orqanlarının yerli qurumları, eləcə də özəl qurumların rəhbərləri və nümayəndələri vasitəsilə həll edə bilmədikdə, bir çox məqamlarda bilavasitə Azərbaycan Respublikasının Prezidentinə, onun Administrasiyasına müraciət etməyə üstünlük verirlər.

Şikayətlər, əslində, vətəndaşın narahatlığından, bəzi yerlərdə onun bürokratiya və səhlənkarlıqla, laqeydliklə üzləşməsindən, yaxud qaldırdığı məsələnin həllinə nail ola bilməməsindən, habelə digər səbəblərdən irəli gəlir. Vətəndaşların bu narahatlığı, sözsüz ki, ilk növbədə, məmurları narahat etməlidir, vətəndaşlarla iş elə qurulmalıdır ki, onlar şikayət yazmağa məcbur olmasınlar. Yazıda vurğulanır ki, 2015-ci ildə respublikanın şəhər və rayonlarından daxil olan şikayətlərin öyrənilməsi göstərir ki, hələ də onların bəzilərində şikayətlərin sayı müxtəlif mövzular üzrə kifayət qədər çoxdur və bu da müəyyən narahatlıq doğurmaya bilməz.

Onu da xüsusilə qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev vətəndaşların ərizə, şikayət və təkliflərinə qanunvericiliyə uyğun olaraq müəyyən edilmiş müddətlər ərzində və obyektiv baxılmasını, onların haqlı tələblərinin təmini istiqamətində zəruri tədbirlərin görülməsini bütün dövlət orqanları və dövlət məmurları qarşısında mühüm vəzifələrdən biri kimi qoymuşdur. Bu məsələyə daim toxunan dövlət başçısının əsas tələblərindən biri vətəndaşı narahat edən problemlərə həssaslıqla yanaşılmasıdır. Prezident İlham Əliyev bu barədə deyib: *"Hər bir dövlət məmuru xalqa xidmət etməlidir. Hər bir icra başçısını vəzifəyə təyin edərkən, qəbul edərkən göstəriş verirəm ki, get, xalqa xidmət elə, bu yüksək məsuliyyəti, bu etimadı doğrult. Mənim birinci tələbim xalqa xidmət etməkdir, problemləri həll etmək, şərait yaratmaq, insanları incitməmək, əsassız tələblər irəli sürməməkdir. Yəni, belə olmalıdır, ədalət olmalıdır. Birinci növbədə sosial ədalət"*.

Hər bir dövlət məmuru dövlət başçısının sözlərindən nəticə çıxarmalı, fəaliyyətindən nümunə götürməli, əsl vətəndaşlıq mövqeyindən çıxış etməli, ona həvalə olunmuş vəzifələrin öhdəsindən layiqincə gəlməyi bacarmalıdır. Eyni zamanda, hər bir dövlət məmuru vətəndaşların müraciətlərinə baxılması sahəsində öz məsuliyyətini dərk etməli, öz səlahiyyətlərini vicdanla yerinə yetirməlidir.

Müraciətlərin kim tərəfindən və hansı mövzuda yazılmasından asılı olmayaraq, bu, bir həqiqətdir ki, hər bir müraciətin arxasında bir insanın düşüncəsi, sevinci, yaxud narahatlığı dayanır, eyni zamanda, müraciətlər yaranan problemlərin vaxtında aşkar edilərək aradan qaldırılmasına yol açır. Buna görə də müraciətlərə baxılmasına artan diqqət vətəndaşlara qayğı kimi qiymətləndirilməli, xüsusilə neqativ hallar barədə müraciətlərə daha tələbkarlıqla yanaşılmalıdır. Süleyman İsmayılov bu barədə yazır: *"Prezident Administrasiyasına daxil olan müraciətlərin ayrı-ayrı mövzular üzrə ətraflı öyrənilməsi və təhlil edilməsi müvafiq sahələrdə və regionlarda real vəziyyətin necə olması barədə aydın təsəvvür formalaşdırır. Təhlil və nəzarətin vətəndaşların müraciətlərinə baxılmasında mühüm amil olduğunu nəzərə alaraq ötən il Prezident Administrasiyasının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsində hazırlanmış 30-dan artıq belə təhlili materiallar aidiyyəti qurumlarda baxılaraq lazımi tədbirlər görülmüşdür. Şöbədə aparılan hər bir təhlil, öyrənilən hər bir problem, nəzarət qaydasında baxılan hər bir müraciət barəsində ətraflı məlumat vermək mümkün olmasa da, onu qeyd etməliyik ki, aparılan bütün işlər, o cümlədən təhlil və nəzarətin vəhdəti səmərəli nəticələr vermiş, Prezident Administrasiyasına daxil olan müraciətlərə daha diqqətlə yanaşılmış, respublikanın mərkəzi və yerli icra hakimiyyəti orqanlarında, digər qurumlarda da bu işin təkmilləşdirilməsindən ötrü zəruri tədbirlər görülmüş, dövlət qulluqçularının vətəndaş müraciətlərinə münasibətdə məsuliyyəti daha da artmışdır"*.

Vətəndaşların müraciətlərinə diqqətlə yanaşılması, problemlərinin vaxtında həll edilməsi ölkəmizin inkişafına, cəmiyyətimizin rifahına xidmət edən əsas tələblərdən biridir. Bununla belə, bir məsələni əminliklə deyə bilərik ki, ölkəmizdə həyata keçirilən düşünülmüş sosial-iqtisadi siyasətin nəticəsi olaraq problemlərlə bağlı şikayətlər getdikcə azalacaq və Prezident İlham Əliyevə ünvanlanan minnətdarlıq dolu məktubların sayı daha da artacaq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***